**“Azərbaycan Respublikasında avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yük daşımalarına görə verginin *və məcburi dövlət sosial sığorta haqqının* ödənilməsi xüsusiyyətləri, habelə “Fərqlənmə nişanı” və “Xüsusi fərqlənmə nişanı”nın tətbiq edilməsi Qaydaları”nın təsdiq edilməsi haqqında**[1]

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

“Azərbaycan Respublikasının Vergi Məcəlləsinə əlavə və dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2005-ci il 21 oktyabr tarixli 1028-IIQD nömrəli Qanununun tətbiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 16 dekabr tarixli 330 nömrəli Fərmanının 1.4-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Azərbaycan Respublikasında avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yük daşımalarına görə verginin *və məcburi dövlət sosial sığorta haqqının* ödənilməsi xüsusiyyətləri, habelə “Fərqlənmə nişanı” və “Xüsusi fərqlənmə nişanı”nın tətbiq edilməsi Qaydaları” təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının *Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar* Nazirliyinə tapşırılsın ki, avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yük daşımalarını həyata keçirən şəxslərin tam uçota alınması və fərqlənmə nişanları ilə təmin edilməsi üçün müvafiq tədbirlər həyata keçirsin.[2]

3. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri A. RASİZADƏ**

Bakı şəhəri, 9 fevral 2006-cı il
40

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2006-cı il 9 fevral tarixli 40 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

**Azərbaycan Respublikasında avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yük daşımalarına görə verginin *və məcburi dövlət sosial sığorta haqqının* ödənilməsi xüsusiyyətləri, habelə “Fərqlənmə nişanı” və “Xüsusi fərqlənmə nişanı”nın tətbiq edilməsi**[3]

## QAYDALARI

## I. ÜMUMİ MÜDDƏALAR

1.1. Bu Qaydalar “Azərbaycan Respublikasının Vergi Məcəlləsinə əlavə və dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2005-ci il 21 oktyabr tarixli 1028-IIQD nömrəli Qanununun tətbiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 16 dekabr tarixli 330 nömrəli Fərmanına əsasən hazırlanmışdır və avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yük daşımalarına görə verginin *və məcburi dövlət sosial sığorta haqqının* ödənilməsi xüsusiyyətlərini, habelə “Fərqlənmə nişanı” və “Xüsusi fərqlənmə nişanı”nın tətbiq edilməsi qaydalarını müəyyən edir.

1.2. Bu Qaydalar mülkiyyətində və ya istifadəsində olan avtomobil nəqliyyatı vasitələri ilə (beynəlxalq yük və sərnişin daşımaları istisna olmaqla) Azərbaycan Respublikasının ərazisində sərnişin və yük daşımalarını (o cümlədən taksi ilə) həyata keçirən şəxslərə şamil olunur.

1.3. Avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yük daşımalarını həyata keçirən vergi ödəyicilərinə *(Bakı şəhərinin inzibati ərazisində avtomobil nəqliyyatı ilə müntəzəm şəhərdaxili sərnişindaşımanı və taksi minik avtomobilləri ilə sərnişindaşımanı həyata keçirən vergi ödəyiciləri istisna olmaqla)* “Fərqlənmə nişanı” və “Xüsusi fərqlənmə nişanı” Azərbaycan Respublikasının *Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi* tərəfindən verilir. *Avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yük daşımalarını həyata keçirən şəxslər hər bir avtomobil nəqliyyatı vasitəsi üçün Bakı şəhərinin inzibati ərazisində avtomobil nəqliyyatı ilə müntəzəm şəhərdaxili sərnişindaşımanı və taksi minik avtomobilləri ilə sərnişindaşımanı həyata keçirən vergi ödəyicilərinə münasibətdə ~~Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında~~ Bakı Nəqliyyat Agentliyindən, digər hallarda isə Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyindən təqvim ayının sonunadək öz istəklərinə uyğun olaraq növbəti ay, rüb, yarım il və ya il üçün ciddi hesabat blankı olan “Fərqlənmə nişanı” almalıdırlar.*[4]

## 2. VERGİNİN *VƏ MƏCBURİ DÖVLƏT SOSİAL SIĞORTA HAQQININ* ÖDƏNİLMƏSİ XÜSUSİYYƏTLƏRİ[5]

2.1. Sərnişin və yük daşımalarını həyata keçirən vergi ödəyicisinin hər bir avtomobil nəqliyyatı vasitəsi üçün sadələşdirilmiş vergi Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 220.5-ci maddəsində göstərilən sadələşdirilmiş verginin tətbiq edildiyi ölçü vahidini həmin maddədə qeyd olunan sadələşdirilmiş verginin aylıq məbləğinə, habelə 220.6-cı maddəsində göstərilən əmsallara vurmaqla, *məcburi dövlət sosial sığorta haqqı isə “Sosial sığorta haqqında” Azərbaycan Respublikası Qanununun 14.5.1-1.10-cu və 14.5.1-2-ci maddələrində nəzərdə tutulmuş qaydada hesablanaraq* dövlət büdcəsinə ödənilir.[6]

2.2. Avtomobil nəqliyyatı vasitələrindəki (taksi istisna olmaqla) oturacaq yerlərinin sayı və ya yükgötürmə qabiliyyəti avtomobil nəqliyyatı vasitələrinin qeydiyyat şəhadətnaməsində göstərilmədikdə və həmin göstəriciləri Azərbaycan

Respublikasının Daxili İşlər Nazirliyi tərəfindən verilən arayışlar əsasında müəyyən etmək mümkün olmadıqda, yerlərin faktiki sayı və ya yükgötürmə qabiliyyəti Azərbaycan Respublikasının *Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi* tərəfindən müvafiq qaydada müəyyən edilir.

## 3. "FƏRQLƏNMƏ NİŞANI"NIN VƏ "XÜSUSİ FƏRQLƏNMƏ NİŞANI"NIN FORMALARININ TƏTBİQ EDİLMƏSİ QAYDALARI

3.1. Forması Azərbaycan Respublikasının *İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti* ilə razılaşdırılmaqla Azərbaycan Respublikasının *Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi* tərəfindən təsdiq edilən "Fərqlənmə nişanı" və "Xüsusi fərqlənmə nişanı" avtonəqliyyat vasitəsinin qabaq şüşəsinin yuxarı sağ küncünə yapışdırılır. [7]

3.2. "Fərqlənmə nişanı" vergi ödəyicisinin ərizəsinə əsasən 2 iş günündən gec olmayaraq verilir. "Fərqlənmə nişanı"nın verilməsindən imtina edildiyi halda ərizəçiyə imtinanın səbəbləri göstərilməklə 2 iş günü ərzində, "Xüsusi fərqlənmə nişanı"nın verilməsindən imtina edildiyi halda isə 5 iş günü ərzində yazılı məlumat verilir.

3.3. Mülkiyyətində və ya istifadəsində avtomobil nəqliyyatı vasitələri olan şəxslər digər şəxslərə sifarişlə sərnişin və yük daşıma xidmətlərini göstərdikdə, bu nəqliyyat vasitələri üçün növündən və fəaliyyətini həyata keçirdiyi ərazidən asılı olaraq, Azərbaycan Respublikasının Vergi, *habelə fəaliyyətini həyata keçirdiyi ərazidən asılı olaraq, "Sosial sığorta haqqında" Azərbaycan Respublikası Qanununun 14.5.1-1.10-cu və 14.5.1-2-ci maddələrində nəzərdə tutulmuş qaydada məcburi dövlət sosial sığorta haqqı* Məcəlləsinin 220.5-ci və 220.6-cı maddələrində nəzərdə tutulmuş qaydada vergi hesablanaraq ödənilir və "Fərqlənmə nişanı" alınır. [8]

3.4. Vergi ödəyicilərinin *mülkiyyətində* olan avtomobil nəqliyyatı vasitələri ilə öz istehsal fəaliyyətini təmin etmək üçün işçilərinin və özünəməxsus yüklərin daşınmasında istifadə olunan avtomobil nəqliyyatı vasitələri sadələşdirilmiş vergi növü üzrə vergitutma obyekti deyil. Bu nəqliyyat vasitələri üçün "Xüsusi fərqlənmə nişanı" alınır.[9]

3.5. Vergi ödəyicisinin işçi heyətinin və özünəməxsus yüklərin daşınmasında istifadə edilən yeni avtomobil nəqliyyatı vasitələri müvafiq qaydada qeydiyyata alındıqdan sonra *mülkiyyətində avtomobil nəqliyyatı vasitələri olan vergi ödəyiciləri* 5 gün ərzində Azərbaycan Respublikasının *Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi nə* Azərbaycan Respublikasının *İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti* tərəfindən təsdiq edilmiş formada məlumat verirlər.[10]

3.6. Avtonəqliyyat vasitəsinin *mülkiyyətçisi* və ya istifadəçisi dəyişdikdə, həmin nəqliyyat vasitəsinə sonrakı *ay, rüb, yarım il və ya illər* üçün əvvəlki *mülkiyyətçi* və ya istifadəçi tərəfindən qabaqcadan ödənilmiş vergilər *və məcburi dövlət sosial sığorta haqqı* nəzərə alınır və verginin *və məcburi dövlət sosial sığorta haqqının* ödənildiyini təsdiq edən "Fərqlənmə nişanı"nın yenidən rəsmiləşdirilməsi tələb olunmur.[11]

3.7. Azərbaycan Respublikasının *Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi və ~~Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında~~ Bakı Nəqliyyat Agentliyi* növbəti ayın 10-dək əvvəlki ay ərzində verilmiş nişanlar barədə Azərbaycan Respublikasının *İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti nə* məlumat verir. [12]

3.8. Azərbaycan Respublikasının *Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi və ~~Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında~~ Bakı Nəqliyyat Agentliyi* "Fərqlənmə nişanı" olmadan avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yük daşımalarını həyata keçirən şəxsləri müəyyən etdikdə, həmin şəxslərin qanunvericilikdə nəzərdə tutulmuş qaydada məsuliyyətə cəlb edilməsi üçün Azərbaycan Respublikasının *İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə* rəsmi məlumat verir.[13]

3.9. "Fərqlənmə nişanı" olmadan avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yük daşımalarını həyata keçirən şəxslərin qanunvericilikdə nəzərdə tutulmuş qaydada məsuliyyətə cəlb edilməsini Azərbaycan Respublikasının *İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti* həyata keçirir.

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI


1. 30 yanvar 2008-ci il tarixli **19** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 1, maddə 46)**
2. 5 oktyabr 2009-cu il tarixli **164** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 10, maddə 853)**
3. 4 mart 2016-cı il tarixli **109** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 3 aprel 2016-cı il, 69, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 4, maddə 780)**
4. 10 iyul 2018-ci il tarixli **289** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 12 iyul 2018-ci il, 152, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 7, II kitab, maddə 1625)**
5. 21 yanvar 2019-cu il tarixli **14** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 24 yanvar 2019-cu il, 18 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 01, maddə 158)**
6. 18 mart 2019-cu il tarixli **111** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 20 mart 2019-cu il, 64 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 3, maddə 544)**
7. 10 oktyabr 2020-ci il tarixli **385** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 14 oktyabr 2020-ci il, 211 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 10, maddə 1273)**


## QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

[1] 10 oktyabr 2020-ci il tarixli **385** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 14 oktyabr 2020-ci il, 211, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 10, maddə 1273** ) ilə adına və 1-ci hissəyə "**verginin**" sözündən sonra "**və məcburi dövlət sosial sığorta haqqının**" sözləri əlavə edilmişdir.

[2] 21 yanvar 2019-cu il tarixli **14** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 24 yanvar 2019-cu il, 18, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 01, maddə 158**) ilə 2-ci hissədə "**Nəqliyyat**" sözü "**Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar**" sözləri ilə əvəz edilmişdir.

[3] 10 oktyabr 2020-ci il tarixli **385** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 14 oktyabr 2020-ci il, 211, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 10, maddə 1273**) ilə "Azərbaycan Respublikasında avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yük daşımalarına görə verginin ödənilməsi xüsusiyyətləri, habelə "Fərqlənmə nişanı" və "Xüsusi fərqlənmə nişanı"nın tətbiq edilməsi Qaydaları"nın adına və 1.1-ci bəndinə "**verginin**" sözündən sonra "**və məcburi dövlət sosial sığorta haqqının** " sözləri əlavə edilmişdir.

[4] 30 yanvar 2008-ci il tarixli **19** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 1, maddə 46**) ilə 1.3-cü bəndə ikinci cümlə əlavə edilmişdir.

18 mart 2019-cu il tarixli **111** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 20 mart 2019-cu il, 64, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 3, maddə 544**) ilə "Azərbaycan Respublikasında avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yük daşımalarına görə verginin ödənilməsi xüsusiyyətləri, habelə "Fərqlənmə nişanı" və "Xüsusi fərqlənmə nişanı"nın tətbiq edilməsi Qaydaları"nın 1.3-cü bəndinin birinci və ikinci cümlələrinə "**müntəzəm şəhərdaxili sərnişindaşımanı**" sözlərindən sonra "**və taksi minik avtomobilləri ilə sərnişindaşımanı**" sözləri əlavə edilmişdir.

4 mart 2016-cı il tarixli **109** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 3 aprel 2016-cı il, 69, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 4, maddə 780**) ilə "Azərbaycan Respublikasında avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yük daşımalarına görə verginin ödənilməsi xüsusiyyətləri, habelə "Fərqlənmə nişanı" və "Xüsusi fərqlənmə nişanı"nın tətbiq edilməsi Qaydaları"nın 1.3-cü bəndin birinci cümləyə "**vergi ödəyicilərinə**" sözlərindən sonra **"(Bakı şəhərinin inzibati ərazisində avtomobil nəqliyyatı ilə müntəzəm şəhərdaxili sərnişindaşımanı həyata keçirən vergi ödəyiciləri istisna olmaqla)"** sözləri əlavə edilmişdir və ikinci cümləyə birinci halda "**üçün**" sözündən sonra "**Bakı şəhərinin inzibati ərazisində avtomobil nəqliyyatı ilə müntəzəm şəhərdaxili sərnişindaşımanı həyata keçirən vergi ödəyicilərinə münasibətdə Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Bakı Nəqliyyat Agentliyindən, digər hallarda isə**" sözləri əlavə edilmişdir**.**

10 iyul 2018-ci il tarixli **289** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 12 iyul 2018-ci il, 152, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 7, II kitab, maddə 1625**) ilə "Azərbaycan Respublikasında avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yük daşımalarına görə verginin ödənilməsi xüsusiyyətləri, habelə "Fərqlənmə nişanı" və "Xüsusi fərqlənmə nişanı"nın tətbiq edilməsi Qaydaları"nın 1.3-cü bəndinin ikinci cümləsindən, 3.7-ci və 3.8-ci bəndlərindən "**Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında**" sözləri çıxarılmışdır.

[5] 10 oktyabr 2020-ci il tarixli **385** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 14 oktyabr 2020-ci il, 211, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 10, maddə 1273**) ilə "Azərbaycan Respublikasında avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yük daşımalarına görə verginin ödənilməsi xüsusiyyətləri, habelə "Fərqlənmə nişanı" və "Xüsusi fərqlənmə nişanı"nın tətbiq edilməsi Qaydaları"nın 2-ci hissənin adına "**ödənilməsi**" sözündən əvvəl "**və məcburi dövlət sosial sığorta haqqının** " sözləri əlavə edilmişdir.

[6] 10 oktyabr 2020-ci il tarixli **385** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 14 oktyabr 2020-ci il, 211, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 10, maddə 1273**) ilə "Azərbaycan Respublikasında avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yük daşımalarına görə verginin ödənilməsi xüsusiyyətləri, habelə "Fərqlənmə nişanı" və "Xüsusi fərqlənmə nişanı"nın tətbiq edilməsi Qaydaları"nın 2.1-ci bəndində "**hesablanır və**" sözləri "**, məcburi dövlət sosial sığorta haqqı isə "Sosial sığorta haqqında" Azərbaycan Respublikası Qanununun 14.5.1-1.10-cu və 14.5.1-2-ci maddələrində nəzərdə tutulmuş qaydada hesablanaraq**" sözləri ilə əvəz edilmişdir.

[7] 10 oktyabr 2020-ci il tarixli **385** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 14 oktyabr 2020-ci il, 211, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 10, maddə 1273**) ilə "Azərbaycan Respublikasında avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yük daşımalarına görə verginin ödənilməsi xüsusiyyətləri, habelə "Fərqlənmə nişanı" və "Xüsusi fərqlənmə nişanı"nın tətbiq edilməsi Qaydaları"nın 3.1-ci, 3.5-ci, 3.7-ci, 3.8-ci və 3.9-cu bəndlərində ismin müvafiq hallarında "**Vergilər Nazirliyi**" sözləri ismin müvafiq hallarında "**İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti**" sözləri ilə əvəz edilmişdir.

[8] 10 oktyabr 2020-ci il tarixli **385** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 14 oktyabr 2020-ci il, 211, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 10, maddə 1273**) ilə "Azərbaycan Respublikasında avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yük daşımalarına görə verginin ödənilməsi xüsusiyyətləri, habelə "Fərqlənmə nişanı" və "Xüsusi fərqlənmə nişanı"nın tətbiq edilməsi Qaydaları"nın 3.3-cü bəndinə "**vergi**" sözündən sonra "**, habelə fəaliyyətini həyata keçirdiyi ərazidən asılı olaraq, "Sosial sığorta haqqında" Azərbaycan Respublikası Qanununun 14.5.1-1.10-cu və 14.5.1-2-ci maddələrində nəzərdə tutulmuş qaydada məcburi dövlət sosial sığorta haqqı**" sözləri əlavə edilmişdir.

[9] 5 oktyabr 2009-cu il tarixli **164** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 10, maddə 853**) ilə 3.4-cü bənddə **"balansında"** sözü **"mülkiyyətində"** sözü ilə əvəz edilmişdir.

[10] 5 oktyabr 2009-cu il tarixli **164** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 10, maddə 853**) ilə 3.5-ci bənddə **"həmin avtomobil nəqliyyatı vasitələrinin sahibləri"** sözləri **"mülkiyyətində avtomobil nəqliyyatı vasitələri olan vergi ödəyiciləri"** sözləri ilə əvəz edilmişdir.

[11] 30 yanvar 2008-ci il tarixli **19** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 1, maddə 46**) ilə 3.6-cı bənddə "**aylar**" sözü "**ay, rüb, yarım il və ya illər** " sözləri ilə əvəz edilmişdir.

5 oktyabr 2009-cu il tarixli **164** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 10, maddə 853**) ilə 3.6-cı bənddə **"sahibi"** sözü **"mülkiyyətçisi"** sözü ilə, **"sahib"** sözü isə **"mülkiyyətçi"** sözü ilə əvəz edilmişdir.

10 oktyabr 2020-ci il tarixli **385** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 14 oktyabr 2020-ci il, 211, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 10, maddə 1273**) ilə "Azərbaycan Respublikasında avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yük daşımalarına görə verginin ödənilməsi xüsusiyyətləri, habelə "Fərqlənmə nişanı" və "Xüsusi fərqlənmə nişanı"nın tətbiq edilməsi Qaydaları"nın 3.6-cı bəndinə "**vergilər**" sözündən sonra "**və məcburi dövlət sosial sığorta haqqı** " sözləri və "**verginin**" sözündən sonra "**və məcburi dövlət sosial sığorta haqqının**" sözləri əlavə edilmişdir.

[12] 4 mart 2016-cı il tarixli **109** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 3 aprel 2016-cı il, 69, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 4, maddə 780**) ilə "Azərbaycan Respublikasında avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yük daşımalarına görə verginin ödənilməsi xüsusiyyətləri, habelə "Fərqlənmə nişanı" və "Xüsusi fərqlənmə nişanı"nın tətbiq edilməsi Qaydaları"nın 3.7-ci və 3.8-ci bəndlərə "**Nazirliyi**" sözündən sonra "**və Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Bakı Nəqliyyat** Agentliyi" sözləri əlavə edilmişdir**.**

**[13]** 21 yanvar 2019-cu il tarixli **14** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 24 yanvar 2019-cu il, 18 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 01, maddə 158**) ilə "Azərbaycan Respublikasında avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yük daşımalarına görə verginin ödənilməsi xüsusiyyətləri, habelə "Fərqlənmə nişanı" və "Xüsusi fərqlənmə nişanı"nın tətbiq edilməsi Qaydaları"nın 1.3-cü bəndinin birinci və ikinci cümlələrində, 2.2-ci, 3.1-ci, 3.5-ci, 3.7-ci və 3.8-ci bəndlərində ismin müvafiq hallarında "**Nəqliyyat Nazirliyi**" sözləri ismin müvafiq hallarında "**Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi** " sözləri ilə əvəz edilmişdir.